**AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ ELMLƏR AKADEMİYASI**
**Akad. Z.M.BÜNYADOV ADINA ŞƏRQŞÜNASLIQ İNSTİTUTU**

---

*Əlyazma hüququnda*

**MƏHƏMMƏD RAMAZANƏLİ OĞLU VƏLİXAH**

# QUR'AN VƏ DİNİ PLÜRALİZM

**İxtisas: 7213.01 – Dinşünaslıq**

Fəlsəfə üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI - 2014**

Dissertasiya AMEA akad. Z.Bünyadova adına Şərqşünaslıq İnstitutunun "Din və ictimai fikir" şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** *Filologiya üzrə elmlər doktoru*
Nəsib Göyüşov

**Rəsmi opponentlər:** *Fəlsəfə üzrə elmlər doktoru*
Sakit Yəhya oğlu Hüseynov

*İlahiyyat üzrə fəlsəfə doktoru*
Aqil Muxtar oğlu Şirinov

Aparıcı müəssisə: Azərbaycan Respublikası Prezidentinin yanında Dövlət İdarəçilik Akademiyası, "Fəlsəfə və sosial psixologiya" kafedrası

Müdafiə "26" __may_____ 2014-cü il tarixdə saat _14__
AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun nəzdində yaradılmış birdəfəlik Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Bakı, Az1001, İstiqlaliyyət küçəsi 26, AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu.

Dissertasya işi ilə AMEA Mərkəzi Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat "18" aprel__ 2014-cü ildə göndərilmişdir.

Dissertasiya Şurasının Elmi Katibi,
İlahiyyat üzrə fəlsəfə doktoru Z.A.Əbilova

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Tarix boyu fərdi və ictimai şüurda xüsusi yer tutan dinlərin öyrənilməsi istqamətində müxtəlif konsepsiyalar  və baxışlar meydana çıxmış, onların hər biri bu məsələni öz ideoloji və ictimai-siyasi baxış bucağından araşdırmışdır. Din elə bir sahədir ki, onun mövzusu müxtəlif elmlərin, o cümlədən, fəlsəfə, psixologiya və sosiologiyanın predmetləri ilə kəsişir. Başa bir tərəfdən, din  mədəniyyətin əsas komponentləri ilə qarşılıqlı əlaqə və təsir şəraitində formalaşır və ona görə onun düzgün elmi tədqiqi geniş elmi müstəvidə, müxtəlif baxış bucaqları altında və yeni nəzəri-metodoloji konsepsiyalar əsasında aparıla bilər.  Son dövrlər bu sahə üzrə araşdırmalarda  “dini plüralizm” adlanan yeni bir konsepsiya  diqqəti cəlb etməkdədir. Qərbdə yaranan dini plüralizm ideyası artıq Şərq ölkələrində də ilahiyyatçıların, filosofların və dini sosiologiya ilə məşğul olan mütəxəssislərin marağını cəlb edir.Əlbəttə, bu yeni yanaşma, heç də həmin istiqamətdə əvvəllər mövcud olan Orta əsrlərə xas ənənəvi yanaşmaların, klassik alman fəlsəfəsindən sonra formalaşan metodların əhəmiyyət və aktuallığını rədd etmir.

Dini plüralizm yeni bir nəzəri konsepsiya olmaqla Qərbdə və xristianlıq dünyasında meydana gəlmiş, kilisənin dini araşdırmalar üzərində inhisarçı mövqeyinə alternativ olaraq önə çəkilmişdir. Düşüncə həyatının müxtəlif cəhətlərini əhatə edən plüralizm hərəkəti yeni bir fəlsəfi baxış metodu olaraq islam dünyasına da daxil olmaqdadır. Doğrudur, islam mahiyyətcə inhisarçı və təkqütblü düşüncə sistemi deyildir, bununla belə, islam mütəfəkkirləri həmin nəzəri konsepsiyanın metodoloji müddəalarına əsaslanaraq bu dini təlimlə bağlı bilərəkdən və ya bilməyərək ortaya atılan mübahisəli məsələlərə, şübhəli məqamlara cavab verməyə çalışırlar.

Məsələ ilə bağlı daha önəmli bir məqama toxunmaq lazım gəlir ki, bu da dinlər, mədəniyyətlər və nəhayət sivilizasiyalar arasında dialoqdan ibarətdir. Əslində dini plüralizm mədəni plüralizmdən ayrılmaz bir mövzu olmaqla dinlər və sivilizasiyalar arasında əlaqə və dialoqun tərkib hissəsi kimi başa düşülwr.  Burada söhbət daha çox Şərq-Qərb sivilizasiyaları arasında gedən əlaqə, diskussiya və dialoqdan gedir. Sivilizasiyalar və mədəniyyətlər arasında olan əlaqələrin xarakteri və səviyyəsi müxtəlifdir və hər bir dövrdə bunların fərqli təzahürlərini müşahidə etmək olur.

Bir sözlə, istər-istəməz dini plüralizm nəzəriyyəsi çağdaş dünyada dini təfəkkürün dirçəliş və inkişafına təkan göstərən amil kimi təcrübi fəlsəfə ilə birlikdə xristianlığa nüfuz etmişdir. Bu baxış tədricən başqa dünya dinləri, o cümlədən islamşünaslıqla məşğul olanla-

rın diqqətini cəlb etməyə başlamışdır. Əlbəttə, bu konsepsiyada praqmatik fəlsəfi yön daha çox qabardılır və həmin səbəbdən burada irəli sürülən bir sıra müddəalar din və inancın bəzi təməl prinsipləri ilə uzlaşmır, bəzən isə təzadlı və mübahisəli maqamlar ortaya çıxır.

Praqmatizm və plüralizmdən doğan bir çox məsələlər dini etiqad üçün uyğunsuz görünə bilər. Məsələ burasındadır ki, Qərbin dünyaya sırf maşın və texnologiya gözü ilə baxışı onun özündə də insanların sosial, mənəvi-əxlaqi və ruhi tələbatına cavab verə bilmir. Ona görə burada yenidən mistika və metefizikaya meyl güclənir və dini plüralizm də həmin mənəvi böhrandan qurtuluş üçün göstərilən cəhddən biri kimi dəyərləndirilir. Eyni zamanda həmin nəzəriyyənin səviyyəsi dinin fəlsəfi əsaslarının şərhində Hegeldən çox geridə qalır və hətta onun düzgün tətbiq edilməməsi dinin mahiyyətinin anlaşılmasında yeni təhriflərə yol aça bilər. Bunları nəzərə alaraq, müasir islamşünaslıq həmin cərəyanın nəzəri müddəalarında yer alan zəif və təzadlı cəhətlərə arqumentlər ilə cavab verməyə hazır olmalıdır.

Deyilənləri nəzərə alaraq sözügedən nəzəriyyənin islam mədəniyyəti zəminində araşdırılmasının aktuallığını və əhəmiyyətini bir daha qeyd etmək olar. Ona görə indiki dövrdə ictimai, elmi və mədəni əlaqələrin genişlənməsi zəminində dinlərin dialoqu, onların tipoloji tədqiqi məsələsi önəmli mövzu kimi diqqəti cəlb edir.

**Tədqiqatın işlənmə səviyyəsi və qyanaqları.** Dini plüralizm məsələsi ilk dövrlərdə xristian dünyasında meydana çıxmış, hətta bu fikir bir müddət mühafizəkar kilisə alimlərinin inhisarında qalmışdır. Onlar bu məsələnin yalnız xristianlığa aid olduğunu iddia etmişlər. Sonralar bu məsələnin tədqiqi kilisənin inhisarından çıxmış və bir çox sahə üzrə alimlər həmin istiqamətdə yeni-yeni fikir və mülahizələr söyləmişlər. İslamşünaslıqda isə bu mövzu yenicə diqqəti cəlb etməkdədir[1]. Eyni zamanda müsəlman ilahiyyatçılar məsələyə bir qədər fərqli yanaşırlar. Mövzu barəsində aydın təsəvvür yaratmaq üçün öncə Qərb alim və mütəfəkkirlərinin mülahizə və fikirləri ilə tanış olmaq lazım gəlir. Bu baxımdan Con Hikk, Melkom Hamilton, Elvin Plantinqa, Karl Raymond Pupor, Pol Teylix, Karl Raymond Paper, Maykl Peterson, Eyan Barbür, Normən Gisler, Con Mak Kvari, Qreqor Mak Lenan, Niniyan Esmart, Ernest Renan, Karl Yaspers, Olin Riçards, Qustav Lobon və başqalarının kitab və məqalələrində irəli sürülən məqamlar maraq doğurur. Şərq müəlliflərindən Əllamə Təbatəbai, Təbərsi, Seyid Əhməd əl-Məsir, Vəhəbə əz-Zəhili, Əbdul-

[1] دين شناسي: عبداله جوادي آملي، (بي جا) : مركز نشر اسراء، چاپ اول، 1381 ،ص 14

əziz Əbdül Hüseyn Saçdunya, Həsən Hənəfi, Məhəmməd Hüseyn Fəzlullah, İbn Mənzur, MəhəmmədLəgənhavzen, Seyid Hüseyn Nəsr, Əhməd Vaezi, Möhsin Sadeqi, Cavad Amoli, Əbdülkərim Suruş, Nəsrulla Pur Cəvadı, Əbdürrəhim Gəvahi, Seyid Həsən Hüseyni, Ustad Mütəhhəri və s.-nin əsərlərində bu mövzu ilə əlaqədar fikir və mülahizələrə rast gəlmək olar. Bundan əlavə, ilkin qaynaqlar sırasında dinlərin tarixi aspekdə araşdıraılşasına dair Əbu Reyhan Biruni, Məhəmməd Şəhristani, İmam Məhəmməd Qəzali, İbn Xəldun və Məhəmməd Baqir Məclisinin əsərlərində dəyərli məlumat və fikirlər vardır. Mövzunu araşdırarkən ərəb müəlliflərindən Hürr Amili, Şeyx Mahmud Şəlut, Cəmal Əyad, Məhəmməd Əbuzəhrə, Əbuləla Moududi, Məhəmməd Səlam Mədkurun əsərlərində Qur’anda dinin nə şəkildə anlaşılması və bu səmavi kitabın başqa dinlərə münasibəti barədə maraqlı mülahizələr vardır. Bununla belə, müasir elmdə Qur’an və başqa islam qaynaqları baxımından dini plüralizm konsepsiyasının sistemli və ardıcıl araşdırılması yenicə başlanmışdır və bu sahədə boşluq vardır.

**Araşdırmanın elmi yeniliyi.** Bundan öncə işarə edildiyi kimi, islam mədəniyyətində dini plüralizm mövzususnun müasir elmi konsepsiya şəklində tədqiqinə rast gəlmirik. Xüsusilə bu məsələnin Qur’an ayələri əsasında sistemli və müqayisəli araşdırılması ilk dəfə aparılır. Burada söhbət heç də Qərbdə geniş vüsət alan dini plüralizm nəzəriyyəsinin mexaniki olaraq islam və Qur’ana tətbiqindən getmir. Qərbin özündə bu nəzəriyyə eyni vəziyyətdə qalmamış, onun bir çox müddəaları sonradan dəyişmiş, bir sıra ideyaları isə qüvvədən düşmüşdür. Hal-hazırda bu məsələ üzrə təzadlı və bəzən də əks yönümlü fikirlər ortaya qoyulmaqdadır. Ümumiyyətlə, müasir dünyada gedən proseslər məfkurə sahəsində yaranan cərəyan və konsepsiyaların tez-tez dəyişməsi və əvəzlənməsi ilə nəticələnir. Bir növ indi klassik dövrlərdən fərqli olaraq səbatlı, uzun zaman kəsimi üçün məqbul sayılan və ardıcıl nəzəri konsepsiyalar yoxdur. Bunları nəzərə alaraq Qur’an ayələrində dinə və dinlərə münasibətin mahiyyətini araşdırarkən dini plüralizm nəzəriyyəsinin zəif və qüvvətli cəhətləri aşkar edilir, məsələyəə tənqidi münasibət bildirilir. Bu sayaq müqayisəli təhlil ilk dəfə olaraq aparılır.

Demək lazımdır ki, dini plüralizm xristian dünyasında yaranmışdır, lakin bu o demək deyildir ki, islam bu məsələ ilə üzləşməmişdir və bu dində həmin məsələ ilə bağlı heç bir nəzəri baxış yoxdur. Əksinə Qur’anda və başqa islam qaynaqlarında həmin mövzunun dərin kökləri vardır və sadəcə onları müasir elmi metodlarla aşkar etmək, sistemə salmaq və münasib mövqe seçmək lazımdır. Bir

cəhətə xüsusi diqqət yetirmək gərəkdir: dini plüralizm baxımından bütün insan təcrübələri dini maarif sahəsində eyniləşsə, bu təcrübələr peyğəmbərlərin təcrübələri ilə eyni səviyyədə qoyularsa, oo zaman dini dəyərlər, vəhy və peyğəmbərlərin müqəddəsliyi adiləşə bilər. Ona görə dini plüralizmin nə olduğunu və onun islamda necə anlaşıldığına aydınlıq gətirməyə çalışacağıq.

Dinlər tarixində islamın özəl yeri vardır[2]. Qur'anda başqa ilahi dinlərə, peyğəmbərlərə və səmavi kitablara müəyyən münasibət formalaşmışdır, belə ki, Qur'ani-Kərim səmavi kitabların və peyğəmbərlərin birliyini önə çəkir və onun dini plüralizm məsələsində öz mövqeyi vardır. Tədqiqatda bu yöndə bir çox sualın cavabı axtarılır. Məsələnin aydınlaşması üçün hər şeydən əvvəl dini plüralizm nəzəriyyəsi diqqətlə araşdırılır. Sonra isə mövzu ilə bağlı Qur'an, islam qaynaqları və islam mütəfəkkirlərinin fikirləri əsasında ümumi nəticələr çıxarılır. Sadalanan məsələlərin aydınlaşmasında Qur'ani-Kərimin Həzrəti Məhəmməddən başlayan təfsir metodunun əhəmiyyəti də diqqət mərkəzində dayanır[3].

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiya işinin obyekti Qur'an, hədis və başqa mötəbər qaynaqlar əsasında islamin dinə və dinlərə münasibətinin müasir elmi istiqamətininin müəyyən edilməsindən ibarətdir. Qur'an baxımından dini plüralizmin nəzəriyyəsinin qoyuluşu, həmin konsepsiyaya münasibət və onun əsas müddəalarının və fərqli cəhətlərinin müqayisəli tədqiqi isə araşdırmanın predmetini təşkil edir.

**Araşdırmanın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi Qərbdə yayılan dini plüralizm nəzəriyyəsinin əsas müddalarını müəyyənləşdirmək və həmin məsələnin Qur'an ayələri baxımdan necə anlaşılmasına aydınlıq gətirməkdi. Bunun üçün aşağıdakı sual və müddəaların tədqiqi isə dissertasiya işinin əsas vəzifəsini təşkil edir:

- Qərbdə yaranan dini plüralizm nəzəriyyəsinin mahiyyətin yığcam elmi mənzərəsini vermək, onun güclü və zəif cəhətlərini açıqlamaq;
- Dini plüralizmin Qur'an və sünnə baxımından təhlili, fiqh və islam təfəkkürü meyarı vasitəsilə onun mötəbərlik səviyyəsinin müəyyən edilməsi;
- Dinlər arasında vəhdət və fərqlərin əsas parametrlərinin müəyyənləşdirilməsi;

---

[2] M. Aydın. Dinler tarihine giriş. Ankara: Kitapyurdu. 2008,s.7-9

[3] İ. Cerrahoğlu. Tefsir Tarihi. İstanbul: Fecr Yayınları. 2005, s.53.

- Dini təcrübə, dini epistomologiya və dini plüralizm arasındakı əlaqənin açıqlanması.

- İslamşünaslıq üzrə araşdırmalar üçün dini plüralizm metodologiyasına tənqidi yanaşmanın işıqlandırılması.

- plüralizm baxımından dinin mənasını müəyyənləşdirilməsi;

- dini mətnlərin dərk edilmə metodunun təkmilləşdirilməsi;

- vəhy və dini təcrübə arasında təzad;

- dini həqiqətlərin dini plüralizm ilə münasibəti;

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işi islamşünaslıqda yeni olan plüralizm konsepsiyasının nəzəri müddəaları əsasında aparılır. Burada təhlil edilən məsələlərin şərhi əsasında nəzəri müddəalar irəli sürülür ki, onlar dinşünaslıqda aparılan müqayisəli-tipoloji tədqiqat işləri üçün nəzəri əhəmiyyət kəsb edir.

Araşdırma prosesində öncə toplanan materiallar və faktlar üzərində təhlillər aparılmış, bunların əsasında ümumiləşdirici nəticələr çıxarılmaqla yanaşı, bir sıra nəzəri mülahizələr də irəli sürülmüşdür ki, mədəniyyətşünaslıq və dinşünaslığa aid araşdırmalar aparmaq üçün faydalı ola bilər.

Dini plüralizm bir nəzəri konsepsiya olaraq xristian və Qərb dünyasında irəli sürülmüş və qüsurlardan xali deyildir. Elə buna görə Qərbin özündə də onun naqis cəhətləri tənqid edilmişdir. Burada diqqəti cəlb edən neqativ cəhətlərdən biri dinin və vəhyin inkarı, peyğəmbərlərin məqamının aşağı salınmasıdır və ona görə də islamşünaslar həmin konsepsiyadan yararlanarkən onun bir sıra müddəalarına ehtiyatla yanaşmalı olurlar.

Tədqiqatın nəticələrindən dinlər tarixi, dinşünaslıq və dinin fəlsəfəsi fənnlərinin tədrisində istifadə edilə bilər.

**Araşdırmanın metodu**. Tədqiqat işində dini plüralizm nəzəriyyəsi Şərq və Qərb mədəniyyəti baxımından müqayisəli təhlilə cəlb edilir. Öncə Qərb və islam mütəfəkkirlərinin mövzu üzrə mövqeləri verilir, sonra həmin baxış və mülahizələr Qur'an ayələri və təfsirlər vasitəsilə süzgəcdən keçirilir və təhlilin sonunda yekunlaşdırıcı nəticələr çıxarılır.

Tədqiqat işində həm dinlərin tarixi keçmişi, həm də bu günü araşdırılır, daha doğrusu keçmişlə bu gün arasında olan əlaqənin dinamikası və gələcək təkamül yolu işıqlandırılır. Ona görə burada yeri gəldikcə komparativistika və kulturoloji təhlil metodların faydalanmaq lazım gəlir.

**Dissertasiyanın aprobasiyası.** Tədqiqatın əsas müddəaları və məzmunu ölkə daxili və xaricdə elmi məcmuələrdə dərc edilən məqalə və konfrans materiallarında əkc olunmuşdur.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Qərbdə dini plüralizm nəzəriyyəsinin gündəmə gəlməsi"** adlanan birinci fəslində həmin nəzəriyyənin yaranmasının ilkin müqəddəm şərtləri araşdırılır. 1-ci paraqrafda **"Dini plüralizm ideyasının yaranma səbəbləri və mahiyyəti"** təhlil edilir. Həmin termini birinci dəfə Lotse tərəfindən 1841-ci ildə "Metafizika" kitabında fəlsəfə sahəsinə daxil etmişdir[4]. Sonralar həmin məfhum dinşünaslıqda işlənməyə başladı və bir çox dinlərin mövcudluğunu qəbul edən ideya kimi ilahiyyatçılar və filosoflar tərəfindən elmi ədəbiyyata gəldi[5]. Qərbdə dini plüralizm nəzəriyyəsinin yaranmasının müəyyən ictimai-mədəni, ideoloji-məfkurəvi səbəbləri vardır. Dini plüralizmi hər şeydən öncə xristianlıq dünyasında dini monopolizm əleyhinə yönəmiş bir hərəkət hesab etmək olar. Xristianlıqda hətta 19-cu əsrin ortalarına kimi dini məsələlərin araşdırılması kilisənin nəzarəti altında gedirdi və bu da bir növ dini təlimin elmi yöndən məhdudlaşdırılmasına səbəb olmuşdu[6].

Şərqdə, xüsusilə islam tarixində vəziyyət fərqlidir, yəni məscid tərəfindən dini araşdırmalara məhdudiyyət qoymamışdır[7]. Təbiidir ki, müxtəlif məfkürəvi zümrələr, dini təriqətlər və firqələr, eyni zamanda çeşidli fikir cərəyanlarının arasında dini etiqad məsələləri ətrafında mübahisə və polemikalar olmuşdur. Bu mübahisələr həm sələfiyyə ilə kəlam, kəlam ilə fəlsəfə, təsəvvüflə sələfiyyə və kəlam, yaxud təsəvvüflə fəlsəfə arasında, həm də onların cinahları arasında da davam etmişdir [8]. Bu isə öz növbəsində fikir mübadiləsi və düşüncə hərəkatına təkan verməklə araşdırma meydanını genişləndirmişdir.

Plüralizm əslində təkqütblü və məhdud baxışdan çoxyönlü və geniş baxışa döğru bir hərəkətdir. Həmin baxış öz müxtəlifliyi, rəngarəngliyi və dinamikliyi ilə seçilir. Başqa sözlə desək, dini baxım-

---

[4] A Interpretation of Religion, Human Responses to the transcendent: John Hick. Yale University press, 1989,p.4-5.

[5] 50. Philosophy of Religion : John Hick, Prentice – Hall, 1990, p.12

[6] Religious pluralism in Christion and Islamic philosophy, The thought of John Hick and Seyyed Hossein Nasr: Adnan Aslan. Curzon Press, 1988, p.84

[7] Seyyed Hossein Nasr, An Introduction to Islamic cosmological Doctrine, " Islamic cosmology" in UnEsco, to Islamic civilization. Albany State University of NY press. 2007, p.12

[8] آثار الحرب في الفقه الاسلامي: وهبه الزحيلي، دارالفكر دمشقي، كپي چاپ سوم ، 1998ص 21

dan nicat və qurtuluşun təkcə bir yolu və üsulu yoxdur, burada çoxlu sayda yollar mövcuddur[9]. Burada İslam düşüncəsində, xüsusilə təsəvvüfdə diqqəti cəlb edən bir məqamı xatırlamaq lazım gəlir: Allaha doğru geden yollar nəfslərin və ya insanların sayı qədər çoxdur[10].

Dini plüralizm nəzəriyyəsinin banisi ingilis filosofu Con Hikkdir. Müəllif əvvəllər fundamentalist bir xristian kimi ənənəvi dini baxışlarına malik olmuş, əsasən mühacirlərin təşkil etdiyi müxtəlif dini icmalara mənsub insanların mərkəzi sayılan Birmingem şəhərində təhsil alması onun dünyagörüşünün formalaşması üçün zəmin yaratmışdı[11]. Hikkin məzhəb və ya dinlərlə bağlı plüralist fikirlərinin formalaşmasına təsir göstərən amillərdən biri də Kant Vel Smitin (Kant Well Smith ) əsərləri olmuşdur[12].

Hikkin xristianlıq ilahiyyatında etdiyi «Kopernik inqilabı» onun dinlər haqqında plüralist baxışının ən yaxşı göstəricisidir.: "Bilmək lazımdır ki, İsa deyil, Allah bütün böyük dini sistemlərin mehvəri olmalıdır»[13].

Con Hikk "Din fəlsəfəsi" kitabında Kant Vel Smitin dilindən yazır: "Bir nəfərin xristianlığın, yaxud islamın "haqq din" olmasını düşünməsi yanlışdır. Bu ənənə əsasən maarifçilik əsrindən miras qalmışdır. İlk dəfə xristianlıq, buddizm və islam arasında ayrıseçkilik və ixtilaflarlar sünu şəkildə şişirdildi"[14].

**"Dini plüralizmin əsas məfhum və kateqoriyaları"** adlı ikinci paraqrafda aşağıdakı məsələlər işıqlandırılır:

**A. Allah, yoxsa son reallıq.** Con Hikk Allah barəsində olan fikirlərə yeni bir forma verməyə çalışaraq bu mücərrəd məfhum ətrafında yeni təsəvvür yaratmaq məqsədilə son reallıq məfhumu işlədir. Onun son reallıq barədə mülahizələri Kantın epistemoloji baxışlarına bənzəyir. Kantın fikrincə, bu aləmdə bizi iki cəhət əhatə edir: hadisələr və mahiyyətlərin reallığı. İdrakın epistemoloji qütbü ikinci cəhətə şamil olunur, çünki, bəşərin zaman və məkan daxilində təcrübədən keçirə biləcəyi şeylər yalnız hadisələr ola bilər. O, belə

---

9 دين شناسي: عبداله جوادي آملي، (بي جا) : مركز نشر اسراء ، 1381 ص68

10 جامع السعادات: نراقي، ملا مهدي، تهران، انتشارات حكمت ، ص84

11 A Interpretation of Religion, Human Responses to the transcendent: John Hick. Yale University press, 1989, p.22

12 Philosophy and Religion in mircea Eliade,(ed),The Encyclopedia of Religion: John Smith. Macmillan Publishing company, 1987.vol.11,p.32

13 Espistemegical model and Religious pluralism: Sedivy David, Kant. Macmillan publishing company. 2009, p.68.

14 Philsophy and Knowledge: John Hick, St, Martins press., 2008,p.75

hesab edir ki, insanın idrakı hadisələr ilə məhdudlaşır və bu gün Allahı da əhatə edən mahiyyət və ya substansiyalar bəşərin idrak və mərifət çevrəsindən xaricdir. Con Hikk Kantın ardınca son reallıq, yaxud Allah və bəşərin hissi təcrübələri arasında olan fərqləri ayırd etməyə çalışır [15].

Hikkə görə, son həqiqət mahiyyətcə birdir, fərqlər və ixtilaflar bizim düşüncə səviyyəmizdən və təsəvvür müxtəlifliyindən irəli gəlir, bəşərin zehni həmin vahid həqiqəti fərqli şəkillərdə qavrayır" [16].

Yuxarıda deyilənləri nəzərə alaraq demək lazımdır ki, dünyanın bütün böyük dinlərinin hamısında son reallığa, yaxud Allaha iman ifadə olunur və dini mətnlərdə olan bütün adət, qayda və mərasimlər bəşərin nicat və xilas olmaq məqsədi ilə yerinə yetirilir. Deməli, dinlərin müxtəlifliyi hər şeydən öncə son həqiqətin və ya Allahın bəşər düşüncəsində təcəllisinin və ya idrak edilmə üsullarının müxtəlifliyindən irəli gəlir. Bununla da bəlli olur ki, bütün dinlər insanın ali həqiqətə çatması üçün yol, yaxud vasitədir. Lakin bu dinlər müxtəlif dillər və tarixi-mədəni mühit çərçivəsində müxtəlif təcrübələr əsasında formalaşırlar[17].

Xristianlıqda Allahın İsa Məsihdə (ə) təcəssüm etməsi ( inkarnasiya) təhrifə uğramış fikir sayılır[18]. Halbuki Allahın İsa peyğəmbərdə təcəmmümü xristianlıqda ən əsas əqidə və nəzəriyyələrdən biridir[19]. Lakin Con Hikk xristianlıqda yer alan bu ideyanı başqa şəkildə izah etməyə cəhd göstərir: "Təcəssümə və eyniləşdirməyə əsaslanan dilin məntiqi xüsusiyyətini araşdıraraq belə bir nəticəyə gəldim ki, Allahın İsada bu cür təcəssümü və onunla eyniləşdirilməsinə səbəb obrazlı ifadədir. Biz bunu gerçək olaraq qəbul edə bilmərik. Burada obrazlı, məcazi və mifik bir ifadə tərzi vardır"[20]. Hikkə görə, bu bir metaforadır"[21] Ancaq Qur'anda Məsihə yanaşma fərqlidir[22].

---

[15] The Reformed objection to natural theology in Christion Review: Alvin Plantinga. 3rd ed.1998.p..31

[16] Fait and Religion Knowledge: John Hick. Macmillan Press, 1998, p.84

[17] صراطهاي مستقيم: عبدالكريم سروش، تهران: ، 1378 ص 69

[18] صراطهاي نامستقيم: غلامرضا مصباحي مقدم، ت0ران، 1376، ص 28

[19] كتاب مقدس، شامل عهد جديد و عهد قديم: انجمن پخش كتب مقدسه، 1362، ص 34

[20] رويكردهاي مختلف به پلوراليسم ديني: كلين ريچاردز، ترجمه رضا كندي نصرآبادي و احمدرضا مفتاح، تهران: مركز مطالعات و تحقيقات اديان و مذاهب، 1383،ص 37

[21] رساله مسيح در قرآن كريم: محمد ولي‌خواه، تهران: دانشگاه آزاد .ص.214

[22] اموس كتاب مقدس: جميز هاكن، تهران، 1349، ص 58

**B. Dinin cövhəri.** Hikkə görə, dinin cövhəri heç də dini nəzəriyyə və əqidələrdən ibarət deyildir, əksinə “dinin cövhəri” insan şəxsiyyətinin mənəvi və ruhi baxımdan dəyişdirilməsini şərtləndirir[23]. Müəllif bu fikirdədir ki, “dini inanclar üzərində həddindən artıq təkid etmək və onları elmi izahlarla təsdiq və təkzib etmək kimi metodlar bizi dini həqiqətlərdən uzaqlaşdırır”[24] .

**C. Dini təcrübə.** Dini təcrübə mövzusu qərbin praqmatik və təcrübi fəlsəfi baxışlarından qaynaqlanan bir məsələdir. Qeyd edək ki, bu məsələ öncə əxlaq, sonra dini araşdırmalar sahəsinə tətbiq edildi[25]. Con Hikk həmin təcrübəni bütün təbii və qeyri-təbii hadisələrə şamil edir[26]. Müəllif dini təcrübə məsələsini dini plüralizm konsepsiyası ilə sistemə salmağa çalışır. Dini təcrübə keçən şəxs yəhudi, xristian müsəlman və hindu ola bilər[27]. Əlbəttə, bu məsələdə müəyyən həqiqətlər də vardır və İmam Məhəmməd Qəzali hələ Con Hikkdən min il öncə məşhur hədisə əsaslanaraq dini etiqadın mühitlə bağlılığını izah etmişdir: “Doğulan hər kəs bir fitrətlə doğulur, ata və anası onu cühud, tərsa və ya məcus edir”[28] .

Nəticə olaraq Con Hikk mahiyyətcə dini təcrübə, mistik təcrübə, ezoterik müşahidə və hətta peyğəmbərlərin dini həyatını eyni mənada bilir, bunların hamısını dini təcrübə kimi qəbul edir[29]

**D. Mütləq gerçəklik.** Dini plüralizm konsepsiyasında “mütləq gerçəklik” məfhumu xüsusi bir baxışla açıqlanır. C.Hikk bütün dini və başqa mətləbləri sırf öz konsepsiyası çərçivəsində izah etməyə çalışır və o, Allah məfhumu əvəzinə “gerçəklik”, “son gerçəklik” və “mütləq gerçəklik” sözlərini işlədir. Allah bütün varlıqlardan yüksəkdir və “mütləq gerçəklik” bütün varlığın xaliqidir[30]. Onun fikrinə görə, son gerçəkliyin substansiyası insanın müşahidəsinə sığışmır, onun təcrübədən keçirdiyi hisslər mütləq gerçəkliyin təcəllisidir. Deməli, insanın müşahidə etdiyi əsl gerçəklik deyil, onun öz təsəvvürləridir[31]

---

[23] فلسفه دين، كلام فلسفي: اسمارت نينيان، ترجمه احمد نراقي و ابراهيم سلطاني، ، تهران: صراط، 1374، ص308

[24] مناظره و گفتگو در اسلام: محمد محمدي ري شهري ، قم : دارالحديث، 1383، ص 74

[25] Seyyed Hossein Nasr, An Introduction...2007,p.38

[26] Philsophy and Knowledge: John Hick, 2008.p.151

[27] Problems of Religious pluralism: John Hick. St, Martins press, 1985,p.21

[28] جامع البيان لعلوم القرآن : طبري، ابوجعفر محمدبن جرير، 2 جلد، طبع دارالعرفه الطباعه و النشر، بيروت، 1400 ه ص 53

[29] Fait and Knowledge: John Hick. Macmillan Press, 1988, p167

[30] Philosophy of language: William Alston. Prentice Hall, 1964, p.64

[31] God has many names: John Hick. Philedelphia, 1982,p.140

C. Hikk öz nəzəriyyəsini monoteist dinlərlə məhdudlaşdırmır, bunu vəhyə əsaslanmayan başqa dini təlimlərə də aid edir.

İslamda isə bəşərin Allah barəsindəki mərifəti təcrübi müşahidələrə söykənmir. Burada insanın diqqəti Allahın təcəllisinə yönəlir və o, mütləq gerçəklik olaraq bir həqiqətdən ibarətdir. Həmin həqiqət varlıq aləmində müxtəlif şəkillərdə təzahür edir, yəni Qərb plüralizmindən fərqli olaraq Allah insanın subyektiv təsəvvüründən ibarət deyildir[32]. Seyyid Hüseyn Nəsr məsələyə aydınlıq gətirərək göstərir ki, həqiqi varlıq birdir və o da Allahdan ibarətdir, qalan nə varsa bütün mövcud şeylər və hadisələr Onun təzahür və təcəllisidir. Haqqdan başqa nə varsa nisbi varlığa malikdir və Allahın mərifəti isə Con Hikin qeyd etdiyi kimi bəşərin təcrübəsi ilə mümkün deyildir, onun vəhy qəlibində ilahi kökü vardır [33].

Bu fəslin üçüncü paraqrafında **isə "Dini plüralizm və dinlər arasında ixtilafların həlli məsələsi" təhlil edilir.**

Dini plüralizm nəzəriyyəsi öz ideyalarını müəyyən müddəalarla əsaslandırmağa çalışaraq bir neçə prinsip irəli sürür:

1. Dini inanc, etiqad və anlamlar semantik tutuma malik olmaqla yanaşı, sübut olunmağa qabildir.
2. Dinləri dərəcələrə bölmək cəhdi zərərli, gerçəklikdən uzaq və qeyri-məqbuldur.
3. Mütləq gerçəklik insan şüurunda təcəlli edir.
4. İnkarnasiya və Allahın İsada təcəssümü simvolikdir.
5. Dini plüralizm nəzəriyyəsi dinlərin qəbulunu asanlaşdırır.

Hikkin fikrincə dini nəzəriyyələr arasında müşahidə edilən ixtilaflar üç səviyyədə anlaşılır[34].

1. Tarixi məsələlər və hadisələr barəsində ixtilaflar.
2. Tarixdən kənar hadisələr barəsində fikir ixtilafları.
3. Dini əfsanə və rəvayətlərdə əks olunan hadisələrdən qaynaqlanan ixtilaflar.

Burada Con Hikk, eyni zamanda dinlərin bir-birini təkmilləşdirməsi prinsipindən söz açır. Ancaq müəllifin bu məsələ barəsində irəli sürdüyü mülahizələr ardıcıl deyildir. Onun konsepsiyası dinə və inanca mürəkkəb bir ruhi-mənəvi və psixoloji sistem kimi baxmır, bəzən isə səthi yanaşaraq onu başqa texniki elmlərdə olduğu kimi, təcrübi bir məsələ olaraq izah edir .

---

[32] نياز به علم مقدس: سيد حسين نصر، ترجمه حسن مياندار ي، تهران مؤسسه فرهنگي طه، 1379، ص 35

[33] Həmin qaynaq.s.38

[34] Philosophy and Religion in Mircea Eliade…., 1987.p.42

**İkinci fəsil “Qur’an baxımından dini plüralizmin əsasları”** adlanır və burada Qur’an ayələri və onların təfsiri əsasında müqayisəli araşdırmada bu səmavi kitabın dini plüralizmin əsas müddəaları ilə bağlı mövqeyi ortaya qoyulur.

Birinci paraqrafda “**İlahi peyğəmbərlərin birliyi və onların vahid risaləti”** məsələsi araşdırılır.

Peyğəmbərlərin birliyi məsələsi Qur’anın bir çox ayələrində diqqətə çatdırılır: Bəqərə surəsi, 285-ci ayəyə görə, İslam peyğəmbərinə nazil olunanlar bütün peyğəmbərlərə göndərilmişdir[35]. Yəhudilər və xristianlar Musa, İsa və Mohəmməd arasında fərq qoymuşlar. Halbuki, onların missiyasi birdir.

Əhzab surəsi, 7-8-ci ayələrdə də söhbət bütün peyğəmbərlərdən əhd-peyman almaqdan gedir.[36]. Oxşar cəhət Nisa: 162-163-ci ayələrdə də vardır. Təbatəbaiyə görə, ilahi vəhy cərəyanı heç bir fərq olmadan bir üsul üzlə davam etmişdir”[37].

Şəriətlərdə, adətlərdə, ibadət və namaz vaxtlarında fərq və ixtialflar olsa da məqsəd birdir, vahiddir. Lakin məqsəd bir olsa da, vasitələr çoxdur. Onlar zaman, növ, qavram və dərk olunmalarına görə fərqlidirlər [38].

Deməli, peyğəmbərlərin əsas risaləti ilk növbədə insanlar üçün bir olan Allaha ibadət etməyin təbliğindən ibarətdir. İslamda irəli sürülən davranış və ədəb qaydaları, ilahi hökm və ənənələr həm islam peyğəmbəri üçün və həm digər peyğəmbərlər üçün doğru din yoluna dəvət üsulu sayılır və bunların hamısı tovhid – təkallahlıq etiqadına söykənir. Şüəra surəsinin 108, 126, 131, 144, 150, 163, 179-cu ayələrində təkrar-təkrar deyilir:“ فَاتَّقُوا اللَّهَ وَأَطِيعُونِ Artıq Allahdan qorxun və mənə itaət edin!”.

Qur’ani-Kərimdə hənif dini anlamına və həzrəti İbrahimlə (ə) bağlı ayələrə diqqət yetirildikdə bir önəmli məsələ ortaya çıxır, belə ki, tovhid etiqadı öncə həzrəti İbrahimə vəhy olunmuşdur.

---

35 تفسير نمونه: ناصر مكارم شيرازي، 20 جلد، قم: دارالكتب الاسلاميه ، ص 425 1363، ج 4

36 مجمع‌البحرين: فخرالدين طريحي، تحقيق السيد احمد الحسيني، تهران: المكتبه المرتضويه لاحياء آلاثارالجعفريه، چاپ اول، 1386، ج 2، ص215

37 الميزان في تفسير القرآن: سيدمحمدحسين‌طباطبايي، ترجمه سيد محمد باقر موسوي همداني، قم: انتشارات اسلامي، 1363، ج5، ص 281

38 من النقل الي الابداع: حسن الحنفي ، دار قباء للطباعه والنشر و التوزيع، ج 3، ص 203

Sonuncu peyğəmbər Həzrəti Məhəmməd (s) də İbrahimə endirilən hənif dininə - yəni tovhidə etiqad bəsləyir və deməli, bunların hər ikisinin dəvəti mahiyyətcə eynidir (Ənam:161;Ənam: 130-131). Deməli, bütün ilahi peybəmbərlərin göndərilməsinin məqsədini üç ümumi mehvər ətrafında xülasə etmək olar:

1. İlahi hikmət və kitabın təlimi;
2. İnsan nəfsinin təmizlənməsi;
3. İctimai ədalətin tənzimlənməsi.

Deyilənlərdən aşağıdakı nəticələr əldə edilir:

1. Qur'anın dinlər haqqında baxışı təkqütblü deyil və plüralistdir və həmin baxışa görə bütün ilahi dinləri haqlıdır və onlar arasında vəhdət vardır.
2. İlahi dinlərin hər biri ilahi vəhyin xüsusi dərəcə və mərtəbəsinin təzahürüdür.
3. Bütün dini təlimlər mahiyyətcə üst-üstə düşür və bu baxımdan pak islam dini başqa dinlərin davamı kimi çıxış edir.

**"Dini plüralizm baxımından səmavi kitabların vəhdəti"** adlanan ikinci paraqrafda isə iki məsələyə aydınlıq gətirilir:

**1. İman və din, onun qəbulunda müstəqillik**

Allaha iman onun göndərdiyi peyğəmbərlərə və nazil etdiyi səmavi kitablara iman ilə qüvvətlənir və mükəmməlləşir ( Nisa:136).

Bütün dinlər, səmavi dinlər Adəmdən (ə) Məhəmmədi Xatəmə (s) qədər diqqət mərkəzindədir. (Bəqərə:41, 89, 91, 97, 106, 113). Öncə Bəqərə surəsi, 136-cı ayədə təkid edildiyi kimi, Allahın göndərdiyi kitablar arasında ixtilaf yoxdur, onları insanlar təhrif edirlər. Səmavi kitablar bir-birini tamamlayır (Şüəra: 192-196).

Deməli, Qur'anda deyilənlər əvvəlki səmavi kitablarda da deyilmişdir, deyilənlərin məqsədi birdir və bu məna əvvəlki dörd ayəyə şamil edilir. Qur'ani-Kərimin ayələrində "göndərilmişlər" sözünün işlənməsi təsadüfi deyildir və bu hal bütün peyğəmbərlərin dəvətinin mahiyyətcə eyni olmasına dəlalət edir. 108-ci ayədə Nuh, 126-cı və 131-ci ayədə Hud, 144-cü və 150-ci ayədə Saleh, 163-cü ayədə Lut və 179-cu ayədə Şüəyb peyğəmbərə müraciət olunur. Deməli, bütün dinlərin və bütün peyğəmbərlərin bir risaləti olmuşdur.

Dinin qəbulunda müstəqilliyə gəlincə, bu dini plüralizm baxımından çox önəmli bir mövzudur. Şərəfli ayədə buyurulur: "Dində məcburiyyət (zorakılıq) yoxdur" (Bəqərə:256). Ayədən aydın olur ki, hər hansı dinin qəbul edilməsində bir məcburiyyət yoxdur [39]. Digər tərəfdən isə insanlar ixtiyar və seçim haqqına malik olmaqla yanaşı,

---

[39] Paşazaə Şeyxülislam Allahşükür. Qafqazda islam. Bakı: Azərnəşr. 1991, s.53

müəyyən məsuliyyət və vəzifə daşıyırlar [40]. Deməli peyğəmbərlərin vəzifəsi təbliğ etmək, insanların vəzifəsi isə fikirləşmək, düşünmək, öyrənmək və doğru əməl etməkdir.

**2. Qur'an, Səmavi Kitablar və həqiqi vahid din**

Qur'an konkret olaraq bir neçə səmavi kitabın adını göstərir. Bunlar İbrahimin səhifələri, Musanın Tövratı, Davudun Zəburu və İsanın İncilidir. Bir din var və o da Allaha məxsusdur (Nəhl: 52; Rum:30). Uca Allah yuxarıdakı ayələrdə islam adı altında vahid bir dini nəzərə çatdırır bu ümumi mənaya başqa ayələrdə də rast gəlirik[41]. O biri peyğəmbərlərin də islam dininin – yəni həqiqi monoteist dinin təbliğində öhdələrinə vəzifələr düşmüşdür[42]. Deməli, Qur'an ayələrinə görə hər bir həqqiq din öz dərəcəsində islamdır.

Qur'ani-Kərim məhz dinin ümumi hədəfləri baxımından həzrəti İbrahimi müsəlman olaraq təqdim edir və islam mənasının geniş tutumunu diqqətə çatdırır:

(Ali-İmran:67). Həzrəti İbrahimin hənif dininə aid edilməsi göstərir ki, yeganə həqiqi din və bəşəriyyətin fitri etiqadı hənif və ya islamdır. Sadəcə yəhudilik və xristianlıq həqiqi və hənif olan dindən sapmışlar[43]. Hənif sözünün Qur'andakı izahı həqiqi vahid din mənasındadır [44]. Maidə surəsi, 48ci ayədən bəlli olur ki, ilahi din bir, onun yolları və şəriətlər müxtəlifdir.

Ücüncü paraqraf **"Qur'anda dinlərin kəlam birliyi"** adlanır.

Qur'an ayələri üzərində ardıcıl mütaliə və düşüncədən sonra bəlli olur ki, bütün ilahi dinlər əsas məsələlərdə və prinsipal etiqad mövzusunda söz və ifadə birliyinə malikdirlər və ilahi dinlərin hamısı eyni ideyanı təbliğ edirlər.

Həmin söz birliyinin əsas cəhətləri aşağıdakılardan ibarətdir:

1. Tovhid (Ali-İmran: 64; Bəğərə: 136;)

2. Axirətə inam dinin əsas prinsiolərindən biridir (Bəqərə: 4-5; Bəqərə: 62; Maidə: 69; 5,75; 13,87; 20,96; 23,126; 24, 215)

3. Saleh əməl.

---

40 الميزان في تفسير القرآن: سيد محمد حسين طباطبايي... لبنان: موسسه الاعلمي للمطبوعات، 1973، ج 2، ص 20

41 كتاب كشف الحقايق عن نكت الآيا ت و الدقايق تفسير قرآن شريف، مير محمد كريم نجم الحاج مير جعفر العلوى الحسينى الموسوى الباكوى، باكو. جلد سوم، كاسپى غزتى مطبعه سى. 1322، ص 15

42 صراطهاي نامستقيم: غلامرضا مصباحي مقدم، ت0ران، ص112

43 نورالثقلين: العروسي الحويزي، عبدالرحمنبنابيبكر، مؤسسه التاريخ العربي، جلد 1، بيروت، 1379، ص 457

44 المفردات في غريب القرآن: حسين ابن محمد راغب اصفهاني، بيروت: دارالمعرفه، 1974، ص 124

İslamda elm ilə əməl bir-birini tamalayan tərəflərdir və hər bir baxımdan əməl önəmli bir amil kimi çıxış edir[45]. Qur'an ayələrində adətən imandan bəhs edilən hər bir yerdə saleh əməldən də söz açılır (Yunis:4; Kəhf: 107).

Deməli, hər bir kəs – istər yəhudi, istər xristian, istərsə də sabii olsun, əgər öz ayin və təfəkkürü ilə üç prinsipi qəbul edərsə, o. mahiyyətcə müsəlmandır. İlahi peyğəmbər və dinlərin birliyi haqqında gələn hökmə görə, bütün peyğəmbərlər və bütün dinlərin təkcə bir həqiqi seçimi olmuşdur, o da islamdır. Buna görə də islam peyğəmbəri həm ilahi dini başlayandır, həm də onu sona çatdıran[46] . İslam təhrif edilməmiş olduğundan həqiqi din sayılır (Ali-İmran:19).

Son paraqrafda **"Plüralizm baxımından Qur'anda «qital» anlamı"** izah edilir. İslamın mahiyyətini və ruhunu bilməyən bəzi müasir zümrələr savaşa aid ayələri düzgün açıqlamır, hətta onları təhrif edirlər. Bəllidir ki, bu ayələrdə kafirlərə, müşriklərə və düşmənlərə qarşı mübarizəyə çağırış səslənir. Məsələnin məntiqi çox sadədir: müsəlmanlar təcavüzə məruz qalarkən və haqqları tapdalanarkən özlərini müdafiə etmək məqsədilə son vasitəyə - hərbə əl atmağa məcbur olurlar.

Qeyd edək ki, müsəlmanların "qital"a əl atmasının səbəbi bir çox ayələrdə izah edilir və bunun kökündə onların öz hüquqlarını müdafiəyə hazır olmağı dayanır[47].

İndi məsələni konkrert Qur'an ayələri əsasında araşdırmağa çalışaq:

ِلُوا فِي سَبِيلِ اللهِ وَقَاالَّذِينَ يُقَاتِلُونَكُمْ وَلَا تَعْتَدُوا إِنَّ اللهَ لَا يُحِبُّ الْمُعْتَدِينَ

"(Ey möminlər!) Sizinlə vuruşanlarla siz də Allah yolunda vuruşun, lakin həddən kənara çıxmayın. Allah həddi aşanları sevməz!" (Bəqərə:190)

Bu ayə ilə bağlı aşağıdakı cəhətlərə diqqət edək:

1. Müsəlmanlar o zaman müharibə edib, Allah yolunda qitala əl ata bilərlər ki, başqaları onlara qarşı hərbə başlamış olsunlar.

2. Onlar döyüş zamani hədd və hüdudlardan kənara çıxmamalı və döyüşdə comərdlik prinsipləri qorunmalıdır.

3. «Səbilullah» sağlam fitrətin himayə etdiyi ilahi hüququnun qorunub saxlanmasııdır.

***Fitnənin aradan qaldırılması üçün qital***: Qur'anda deyilir:

---

45 H. Karaman. İslam işığında Günün meseleleri. İstanbul. 2003.c.3.s.256

46 تفسير قمي: محمد ابراهيم قمي، قم: منشورات بنى الزهراء، 1377، ص 314

47 الوحي المحمدي: رضا رشيد، مطبعه صبيح، المطبعه الخامسه، بيروت: المكتب الاسلامي 1995،ص38

«Fitnə aradan qalxana qədər və din ancaq Allaha məxsus edilənədək onlarla vuruşun» (Bəqərə:193).

Fitnə cəmiyyətdə ən böyük bəlalardan biridir və hətta öldürməkdən pisdir, "çünki öldürmək yalnız bir insanı yaşamaqdan məhrum edirsə, fitnə isə insanlara həm bu dünya və həm axirətdə məhrumiyyətlər gətirir"[48].

***Kitab əhlinə qarşı savaşin məntiqi*:** «Kitab əhlindən Allaha və qiyamət gününə iman gətirməyən, Allahın və Rəsulunun haram buyurduqlarını haram bilməyən və haqq dini qəbul etməyənlərlə zəlil vəziyyətə düşüb sizə cizyə verincəyə qədər vuruşun» (Tovbə:29). Ayədə kitab əhli ilə yalnız cizyə verməyənə qədər vuruşun deyilir. Bu onu göstərir ki, onların etiqadlarına qarşı savaşa lüzum yoxdur.

***Münafiqlərə qarşı qital*:** **(**Nisa:89). Bu ayə ikiüzlü müşriklərlə mübarizə üçün nazil olmuşdur. Allah buyurur ki, onlarla dost olmayın və onlardan ayrılın.

***Tüğyan edənlərə qarşı qital*:** (əl-Hucurat:9). Bu ayə islam cəmiyyətində münasibətlərin tənzimlənməsi yolunu açıqlayır. Onların arasında savaş baş verdikdə onları barışa vadar etmək gərəkdir[49].

***Müşriklərə qarşı qital***: (Tovbə:36). Bu ayədən görünür ki, müsəlmanlar müharibə istəmir, əksinə müharibəni müşriklər başlayırlar. Müsəlmanlar isə təbii ki, özlərini müdafiə etməyə məcbur olurlar.

***Zülmə məruz qalan zaman qital***: (Həcc:39). Bu ayədə isə müşriklər tərəfindən ölümə və zülmə məruz qaldıqlarına görə müsəlmanlara qarşı tərəflə savaş icazəsi verilmişdir.

***Müharibə edənlərə qarşı qital***: (Maidə: 33). Bu ayədə isə Allaha və Peyğəmbərinə qarşı vuruşanlara, yer üzündə fitnə-fəsad salanlara qarşı savaş icazəsi verilir. Tarixin şahidliyinə görə, Peyğəmbər müsəlmanlara hücum etmiş kafirlər üzərində zəfər çaldıqdan və təcavüzü dəf etdikdən sonra onlarla müharibə etmədi [50].

***Hərb ilə cihad arasındakı fərq***: Hərb öz mahiyyətinə görə pisdir, çünki onda ölüm və dağıntılar vardır. Allah yolunda cihad isə başqaları üçün yaxşılıq etməkdir, Haqq qorunma-

---

48 مجمع‌البحرين: فخرالدين طريحي، 1386، ج 2، ص 324

49 Həmin qaynaq.s.342

50 تفصيل وسائل الشيعه الي تحصيل مسائل الشريعه: الحر عاملي محمد بن علي بن حسين، چاپ سنگي، بيروت، دارالاحياء التراث العربي، ص 123

sı və fitnənin qarşısının alınmasıdır. Cihad tuğyan edənlərə qarşı məcburi bir hərəkət və onların məzlumlardan əl çəkmələri üçün yeganə yoldur. Hərb insanların istəyi, qital və cihad isə Allahın istəyidir.

Cihadın ən mühüm qanuni şərtlərini belə ümumiləşdirmək olar:

1. Müsəlmanlara, onların torpaq və mallarına olan təcavüzdən qorunmaq.

2. Əqidə azadlığına, dində fitnənin qarşısının alınmasına zəmanət vermək.

**Üçüncü fəsil "Qur'ani-Kərimdə dini plüralizmin fərqli aspektləri"** adlanır və burada Qur'an və islam baxımından dini plüralizmin fərqli aspektləri araşdırılır. Həmin aspektlər aşağıdakılardan ibarətdir:

- Qur'an baxımından din və islam; islam ümumi və xüsusi mənada necə anlaşılır, Qur'an ayələri bu anlamları necə dəyərləndirir və nə şəkildə izah edir?

- Qur'an ayələri əsasında dini plüralizmin özəllikləri nədən ibarətdir; islam mütəfəkkirlərinin bu barədə tənqidi baxış və fikirləri;

- Vəhy və dini epistemologiya;

- dinlərdə nicat və qurtuluş məsələsi, islamda xatəmiyyət məfhumu, dini plüralizm baxımından şəriətlərin nəsxi (ləğvi);

Birinci paraqrafda **"Din və islam məfhumları"** açıqlanır.

Ümumiyyətlə dinlər iki ümumi qismə bölünür:

1. İlahi dinlər; 2. Qeyri-ilahi dinlər.

İlahi dinlər vəhy və müqəddəs kitabla nazil olan, peyğəmbərlər tərəfindən təbliğ edilən dinlərdir. Burada əsas prinsip vəhyə əsaslanmaqdır. Qeyri-ilahi dinlərin əksəriyyəti adətən ictimai-mədəni, bəzən də sosial-iqtisadi qurum hesab edilir.

Həqiqi din Allahın yanında olan tovhid dinidir və Qur'an ayələri bu dinə dəvət edir (Kafirun:2-6; Bəqərə:193; Tovbə:29; Ə'raf:29, Ənfal:39 və s) . İslam sözü " سلم " kökündən olub, mənası bir şeyin və ya şəxsin qarşısında təslim olmaq deməkdir. Nəml surəsi, 31-ci ayə insanlar bu mənada islama dəv\ət olunurlar. Bəqərə surəsi, 31-ci ayədə də həmin dəvət təkrar olunur.

**İslam haq dindir.** "Yaxşı əməl sahibi olub özünü Allaha təslim edən, İbrahimin hənif millətinə (dininə) tabe olan şəxsdən din etibarilə daha gözəl kim ola bilər? Həqiqətən, Allah İbrahimi özünə dost tutmuşdur." (Nisa:125).

Dindarlığın ən yaxşı nümunəsi etiqad baxımından haqqa-Allaha təslim olmaq, rəftar baxımından isə yaxşı iş görməkdir. Bu ikisinin bir yerdə olması ümumi mənada islam deməkdir.

Doktor Vəhəbə əz-Zəhili islamı dəyərləndirərkən din və şəriəti bir-birindən fərqləndirir, belə ki, islam mükəmməl qanunu bir sistemdən ibarətdir, insanın rahat və xoş ruhiyyə içində yaşamının bütün cəhətlərini əhatə edir. O, islamı din ilə dövlət arasında əlaqə yaradan nizamlı bir qanun hesab edir, bu əlaqəni binanın bünövrəsi ilə onun üstündəki tikinti ilə bağlayan sistemlə müqayisə edir[51].

Nəhl,90-92-ci ayələrdən bəlli olur ki, din ibadətlə məhdudlaşmır, burada cəmiyyətin idarə olunmasını tənzimləyən, onun sülh və əmin-amanlıq içində yaşamasını təmin edən önəmli məsələlər vardır: ədalət və haqqın bərpası, yaxınlara yardım, pis işlərdən və zülmdən çəkinmək, əhdə vəfa etmək və s. Bunlar cəmiyyətdə birlik və anlaşma yaradan amillərdira[52].

İslam fitri dindir və bütün dinləri əhatə edir. Qur'ani-Kərimin ayələrində bu anlam müxtəlif sözlərlə müxtəlif tərzdə ifadə olunur. Məs: qəyyum din, hənif dini, haqq din. Allahın yanında olan din islamdır (Tovbə:36; Rum:43; Fəth:28, Ali-İmran:19).. Deməli, bütün peyğəmbərlər haqq dinin gerçəkləşməsi üçün gəlmişlər. Onların əsasında və mahiyyətində heç bir fərq yoxdur:1. Tovhid; 2. Mə'ad;3. Saleh əməl.

İslam ümumi anlamda Adəmdən (ə) Xatəmə (s) kimi bütün səmavi dinlərə, xüsusilə İbrahimdən gələn ilahi dinlərə şamil edilir

İkinci paraqrafda **"Dini plüralizm, vəhy və dini epistemologiya"** arasında əlaqə şərh edilir. İslamın din barədə etiqad sistemi Qur'ana əsaslanır bu səmavi kitab isə dinin vəhy ilə verildiyini qəbul edir. Ancaq Con Hikkin plüralizm konsepsiyasında vəhyə yer ayrılmır və iman dini təcrübə kimi qələmə verilir[53]. Bu cəhətdən Qur'anın mövqeyi həəmin konsepsiya ilə uzlaşmır[54].

Vəhyin dini mövzuda əsas mənalarından biri Allahın peyğəmbərlərlə əlaqə yaratmaq yoludur və bu danışıq adi haldan fərqlənir (Şura:51;Nisa:163-164). Başqa sözlə desək, vəhy bəşərin öz idrak gücündən xaric bir keyfiyyət olmaqla yalnız peyğəmbərlərə xasdır[55]. Dinin davamı və dəyəri vəhy ilə əldə edilir və vəhyin mahiyyəti pey-

---

51 آثار الحرب في الفقه الاسلامي: وهبه الزحيلي، ص 12

52 فتح الباري بشرح صحيح البخاري: عسقلاني، ابن حجر، 13 جلد ، بيروت، دارالمعرفه، ج 5 ، ص 215

53 Ineffability in Religious studies: John Hick. Vol.36, no.1, march 2000,p.31

54 ختم نبوت: مرتضي مطهري، قم، صدرا، 1366، ص 109

55 مباحثي در وحي و قرآن: محمد حسين طباطبايي، تهران: بنياد علوم اسلامي، 1360،ص 42

ğəmbərlərin missiyası ilə müəyyən edilir. Peyğəmbərliyin inkarı vəhyin inkarı, vəhyin inkarı isə öz növbəsində dinin inkarı deməkdir.

Dini epistemologiya son dövrlər geniş işlənən məfhumlardan biridir və əsasən yeni kəlam elmi və din fəlsəfəsi kimi elmlər bu məfhumu işlədir. Dini plüralizm konsepsiyasında bir sıra nəzəri mülahizələrin izahı üçün bu məfhumdan istifadə edirlər. Məsələ burasındadır ki, düzgün yanaşma olmazsa, dini mətnlərin anlamında yanlış baxışlar ortaya çıxa bilər və dini mətnlərin anlamında ortaya çıxan bütün doğru və yanlış fikirləri din adlandırsaq bu düzgün olmaz. Məhz plüralistlər dini mətnlərin şərh və təfsirində belə ixtilaflara yol verirlər[56]. Dini maarif heç də onu öz kökündən və əslindən çıxararaq təhrif etmək deyildir. Ona görə dini mətnlərin dərkində dərin dini biliyi olmayanlar hermenevtika metodundan yararlansalar da onların gəldiyi nəticələr yanlış ola bilər [57].

Dini dəyərlərin qavram və dərkinin müxtəlif səviyyələri vardır, hər kəs öz istedadına görə ondan bəhrələnə bilər. Bu baxımdan dini qavramının dörd əsas səviyyəsini ayırd edə bilərik:

1. Lövhi-məfhuz və Haqqın yanında olan din;
2. Peyğəmbərlərin bildiyi və təbliğ etdiyi din;
3. Dini mərifətin hikmət sahibləri tərəfindən dərki;
4. Dinin cəmiyyətdə ənənə şəklində yaşamı və davamı.

Üçüncü paraqraf **"İlahi dinləri və şəriətlər arasında münasibət"**i işıqlandırır**.** Öncə bəhs edildiyi kimi, dinlərin islamla sona çatması – yəni xatəmiyyət məsələsi başqa dinlərin statusu və haqlı olması ilə ziddiyyət təşkil etmir, əksinə onları tamamlayır. Xatəmiyyət həm də kamillik mənasında bütün ilahi sünnət və şəriətlərin yekunlaşdırılması mənası bildirir.

Ali-İmran surəsi, 64-cü ayədə buyurulur: "Söylə: "Ey kitab əhli, sizinlə bizim aramızda eyni olan bir kəlməyə tərəf gəlin! Allahdan başqasına ibadət etməyək. Ona şərik qoşmayaq və Allahı qoyub birbirimizi Rəbb qəbul etməyək. Əgər onlar yenə üz döndərərlərsə, o zaman deyin: indi şahid olun ki, biz həqiqətən müsəlmanlarıq" (Ali-İmran: 64). Qur'an ayələrində dəfələrlə təkid olunan ardıcıl tovhid prinsipi islamın ilahi dinlərin vəhdətinə olan məntiqli münasibətinin təzahürüdür.

Şəriət → metafizik idrak → dini həqiqət

Dini həqiqət → şəriət → mistik təcrübə

---

56 صراطهاي مستقيم: عبدالكريم سروش، تهران: صراط، 1377، ص 8

57 هرمنوتيک کتاب و سنت: مجتهد شبستري، ، نشر طرح نو، چاپ دوم، 1375، ص 48

İnanc → şəriət → batini müşahidə

Dinlər öz başlanğıc və son qayəsinə görə də vəhdət təşkil edir və mütləq ilahi dini həqiqətin təzahür və təcəllisidir, yalnız şəriətlər müxtəlifdir. Bu mənada bütün dinlər islam deməkdir, vahid dini həqiqət islamdan ibarət olub bütün dillərə şamil edilə bilər. Həmin cəhətə görə "yəhudilik islamdır", "xaçpərəstlik islamdır", "islam islamdır" demək olar[58]. Ancaq bu fikir dinlər arasında bərabərlik işarəsi qoymaq mənası daşımır, bəlkə ilahi dinlərdən hər birini islamın təcəllisi hesab etmək daha doğrudur.

**Birinci halda** islam məfhumu ümumi ilahi din mənasında işlənir və Qur'an ayələrində buna işarələr vardır. Həmin məna konkret islam dinini nəzərdə tutmur. Deməli ilahi dinlərin hər biri "mütləq", "xas", "nisbi" və "vəhdət" mənasında islam deməkdir;

**İkinci halda** konkret islamı başqa dinlərə şamil edirik və məntiq qaydalarına görə naqis ilə mükəmməl arasında müəyyən nisbət qurmaq olar. Konkret islam, bu cəhətdən ilahi dinlərin daha mükəmməl bir parçası sayılır.

Son paraqrafda isə **"Dini həqiqətlər, nicat və ya qurtuluş baxımından plüralizm"** məsələsi təhlil edilir.

Dinlərin vəhdəti və çoxluğu haqqında deyilənlər dini həqiqətlər və etiqadlar məsələsinə pluralist baxışları əks etdirir. Btün ilahi dinlərdə önəmli yer tutan nicat məsələsində də plüralistlərin mövqeyi təzadlıdır. C. Hikk nicat məsələsini "dini təcrübənin çoxluğu" və "son gerçəkliyin müxtəlif təzahürləri" çərçivəsində izah etməyə çalışır. Dini etiqad məsələsində bəşərin özündən Allaha doğru yönəlməsi önəmli amildir və müqəddəs dəyərləri təcrübi elmlərin meyarları ilə ölçmək mümkün deyil. Eyni zamanda, plüralistlər Allah üçün vahid meyar tapa bilmirlər[59].

Ancaq islam baxımından nicat Allahın geniş rəhməti sayəsində mümkündür və bu rəhmət bütün ilahi dinlərin ardıcıllarına şamil edilir (Yunus: 4; Tövbə: 68).

Burada başqa bir məsələ də diqqəti cəlb edir. Yaradılış sistemindəki "sirati-mustəqim" (düzgün yol) məfhumui şəriət sistemindəki "sirati-mustəqim"dən fərqlənir. Eyni zamanda, dini mükəlləfiyyət məsələsində üzürlü olmaq "sirati-müstəqim"də olmaqdan fərqli bir şeydir. İnsanların çoxu bu cəhətdən üzürlü olduqları üçün cəhənnəmə getməyəcəklər

---

[58] العقل و الجهل: صدرالمتألهين شيرازي، صدرالدين، تهران، 1366، ص 24

[59] The Existence of God: John Hick. Macmillan Publisher press, 1964,p.102-105

Əvvəldə qeyd edildiyi kimi, iman əhlinin nicatı və qurtuluşu barəsində çoxlu sayda ayələr vardır. Bunlar bütün ilahi dinlərin vəhdətini təmin edən, iman və etiqadın əsas ünsürlərini təşkil edən, inancla şəriət arasındakı bağlılığı ifadə edən amillərdir.(Bəqərə: 62; Kəhf: 107).

Bu məsələ üzrə deyilənləri belə ümumiləşdirmək olar:

Bütün dinlərin sahibləri iman əhli hesab olunurlar. Dindarlıq özünün həqiqi mənasında imanın olmasını tələb edir. Dindar olan bir adamı dinindən asılı olmayaraq qeyri-mömin adlandırmaq olmaz. Dindarldıq ilə iman məntiqi baxımdan bir-birilə bərabərdir. Dini iman etiqada və şəriətə bağlılıq deməkdir.

Burada "islam" və "iman" məfhumları arasında olan fərqə də diqqət yetirmək lazım gəlir. "Bütün dinlərin ardıcıllarının iman əhli olması" tezisi və "bütün dinlərin islamın vahid dini həqiqətindən qaynaqlandığ" tezisi bizlərdən dindarları iman əhli yox, yalnız islam əhli adlandırmağı etməyi tələb etmir. Çünki, dindardığın tərif və izahında onun iki əsas ünsürdən, yəni dini əqidələrin qəbul edilməsi və şəriətə bağlılıqdan ibarət olmasına işarə edilmişdir. Aydındır ki, bu iki ünsürə etiqad bəsləmək onları qəlbən qəbul etmək və zahirən onlara təslim olmamaqdan ibarətdir. Başqa ifadə ilə desək, islam əhli ilə iman əhli arasında fərq vahid həqiqət qarşısında batini qəlb imanı cəhətdən deyil, zahiri mənada anlaşılır. Vahid dini həqiqət isə islam, yəni Haqq qarşısında təslim olmaqdır.

Deməli, həmin islam adlanan vahid dini həqiqət haqqında deyilənlər tamamilə uca Allah qarşısında gercəkdən təslim olmaq mənası daşıyan iman prinsipinə uyğundur. Çünki, dini inanclara etiqad və Allah əmrlərinə bağlılıq dinin ilahi həqiqətinin qəlbən və batinidə qəbul edilməsi əsasında formalaşır.

Dissertasiyanın sonunda ümumiləşdirilmiş nəticələr verilir:

Qərbdə yaranan dini plüralizm nəzəriyyəısinin Qur'an baxımından təhlili dinlər üzərində tipoloji araşdırma aparılmasını şərtləndirən mühüm istiqamət kimi qarşıya çıxır və bir sıra maraqlı məqamları ortaya qoyur:

1. Qərbdə yaranan dini plüralizm nəzəriyyəısi mədəniyyətlər və dinlər arasında dialoq və qarşılıqlı əlaqə baxımından maraq doğuran bir konsepsiyadır və ona görə müasir dövrdə həmin mövzunun araşdırılması daha böyük aktuallıq kəsb edir. Burada əsas məqam vahid dini həqiqət barədə müxtəlif yanaşmaların olmasından ibarətdir və ona görə də dinlərin müxtəlifliyi təbii sayılır.

2. İslam Allaha təslim olmaq deməkdir və bu mənada həqiqi dini vəhdət bütün ilahi dinlərdə özünün göstərir. Deməli, bütün ilahi

dinlər həqiqi dini vəhdətin təcəlli və təzahürü sayılır və dinlərin həqiqi vəhdəti uca Allah qarşısında təslim olmaq mənasında anlaşılır.

3. Həqiqi dini vəhdətdə aşkar olan ilahi təcəllinin müxtəlifliyi dinlərin çoxluğuna səbəb olur və bu baxımdan dinlər yalnız öz dərəcə və mərtəbələrinə görə bir-birindən fərqlənirlər. Bu çoxluq ilahi həqiqətin təcəllisinin müxtəlifliyindən doğur, müxtəlif şəraitləri, cəmiyyətlərin inkişaf səviyyəsi və imkanlarını nəzərə almaqla reallaşır. Bu səbəbdən dinlərin hər biri dini vəhdətin bir dərəcə və mərtəbəsini ifadə edir. İslam dini sonuncu din olaraq dini təcəllinin təzahürünün ən ali və ən mükəmməl göstəricisidir.

4. Vahid dini həqiqətin ən ali və ən mükəmməl dərəcədə təcəssümü islam dinində ifadə olunmuşdur. Ancaq İslam dininin sonuncu olması dinlərin çoxluğunun inkar edilməsi mənasında deyil, əksinə, bütün əvvəlki ilahi dinlərin təsdiq edilməsi mənasındadır. Qur'an bütün ilahi dinləri, onların peyğəmbərlərini və səmavi kitablarını qəbul edir. Onun irad və etirazları yalnız təhriflərə görədir.

5. Qur'an baxımından yanaşdıqda dini plüalizm nəzəriyyəsinin zəif və məqbul olmayan cəhətləri üzə çıxır; Qur'anda din və iman, insanın nicatı fitri haldır və ilahi vəhyə əsaslanırsa, Con Hikkin konsepsiyasında sadəcə bəşərin şəxsi təcrübəsi sayılır. Eyni zamanda burada nicat təkcə xristianlğa şamil edilir, halbuki Qur'ana görə bütün səmavi dinlərin ardıcılları nicat tapa bilərlər.

**Dissertasiyanın əsas məzmunu və müddəaları müəllifin dərc etdirdiyi aşağıdakı elmi nəşrlərdə əks olunmuşdur:**

1. Qur'anda "qital" anlamının plüralizm baxı-nından araşdırılması /Bakı Dövlət Universiteti İlahiyyat fakültə-sinin Elmi Məcmuəsi/, 2010, №14,s.249-259

2. Qur'anda dinlərin birliyi/Dövlət və din (ictimai fikir toplusu)/, 2011, № 2 (22).s. 124-128

3.Qur'an ayələri baxımından dini plüralizm/ Dövlət və din (ictimai fikir toplusu)/, 2011, № 3 (23),s. 98-105

4. Müasir dövrdə dini plüralizm /Dövlət və din (ictimai fikir toplusu)/, 2011, № 4 (24),s. 64-71

5. Qur'ani-Kərimdə kitab əhlinə və münafiqlərə münasibət / Orta əsr əlyazmaları və Azərbaycan mədəniyyəti tarixi problemləri /XXII Respublika elmi konfransının Materialları (Bakı, 3 iyun 2011)/. Nurlan, 2011, s. 373-381

6. Религиозно-культурный плюрализм в контексте диалога Восток-Запад/Материалы международного научного симпозиу-

ма, посвященный 90-летию акад. Героя Советского Союза Зии Муса оглы Буниятова/ Историография, иситочниковедение Средневекового Востока .Баку: «Элм» 2012
7. Божественные религии и религиозные законы с точки зрения Корана / Казахский Национальный Университет имени аль-Фараби /ВЕСТНИК, серия востоковедения/ Алматы. 2011, № 4 (57).s. 65-68
8. در آمدی بر تاریخ قرآن کریم (Qur’ani-Kərimin tarixinə giriş) . دانشگاه آزاد اسلام، واحد تهران جنوب، 1382 (Azad İslam Universiteti (Cənubi Tehran bölməsi). 1382. (Monoqrafiya, fars dilində). 162s
9. Qur’an baxımından ilahi dinlər və şəriətlər arasında münasibət/Hikmət” Elmi araşdırmalar toplusu. Bakı: 2011, №18. S. 37-45
10. مصحف علی این ابی طالب (Əli İbn Əbi Talibin Müshəfi),نشریه علمی "نور" ، تهران، 1380، شماره 6 , “Nur” elmi nəşriyyəsi, Tehran: 1380, № 6, s. 87-102
11. گفتاری در آیات و سور قرآنی (Qur’an ayələri və surələri haqqında diskussiya), نشریه علمی "نور" ، تهران، 1381، شماره 8-9
“Nur” elmi nəşriyyəsi, Tehran: 1381, № 8-9,s. 107-126
12. دلایل قا ئلین به تدوین قرآن کریم در زمان حیات رسول گرامی اسلام (ص)
(İslam Peyğəmbərinin həyatı zamanı Qur’ani-Kərimin tərtibini söyləyənlərin dəlilləri), نشریه علمی "نور" ، تهران، 1387، شماره 5 “Nur” elmi nəşriyyəsi, Tehran: 1387, № 5.s. 113-127

## Коран и религиозный плюрализм
## (РЕЗЮМЕ)

Вопрос о взаимоотношении между различными культурами и религиями сегодня является довольно важным. Поэтому изучение отдельных сторон данной проблемы приобретает все больше актуальность. Концепция религиозного плюрализма зародилась на Западе и она впервые была сформулирована Джоном Хикком для решения спорных проблем Христианского мира. Но данный вопрос ныне обсуждается и в мусульманской культуре.

В данной работе исследуются основные положения религиозного плюрализма в кораническом истолковании.

**В первой главе** рассматриваются предпосылки возникновения религиозного плюрализма на Западе. Здесь также освещаются основные понятия и категории данной идеи и попытка Джона Хикка разрешить религиозные разногласия на основе своей концепции.

В конце данной главы дается критическое осмысление отдельных положений данной концепции.

**Вторая глава** содержит основополагающие принципы коранической интерпретации религиозного плюрализма. Здесь выделяется ряд важных моментов, которые заключается в следующем: а. единство сущности вероисповедания; б. единство миссии всех пророков; в. единство духовной основы священных писаний.

Далее рассматривается вопрос о понятии «китал» (войне) в Коране. Ислам всегда выступает против войны, и особенно агрессии, а джихад является последним необходимым и неизбежным, а также правомерным и оправданным актом для самозащиты.

**В третей главе** исследуются отличительные аспекты религиозного плюрализма в кораническом понимании. Здесь привлекает внимание более широкое истолкование слова «ислам», который обозначает всеобъемлющее понятие. В данной же главе рассматривается разногласия между кораническим пониманием «откровение» и концепцией «религиозного опыта» Джона Хикка. Далее речь идет о различных позициях Джона Хикка и Корана относительно религиозных истин и спасения.

## Qur’an and religious pluralism
## (SUMMARY)

The subject of relationship between the different cultures and religions is very important. Therefore, the study of main aspects of this problem is becoming more relevant. The concept of religious pluralism is a product of West Europe and it was first formulated by John Hick for resolve contentious issues of the Christian World. However, the dialogue between the different religions we can discover in Medieval Islamic Culture.

This paper considers exposition of basic elements of religious pluralism in Qur’anic interpretation.

**The first chapter** contains situations and predictors of emergence of religious pluralism in West. There was discussed the main concepts and categories of this idea, where John Hick attempted to resolve the religious differences of Christian World. The end of this chapter presents the critical comments of religious pluralism.

**In the second chapter** explores the fundamental principles of Koranic interpretation of religious pluralism. There was presented important points of this question:

1. The unity of the essence of confession;
2. The unity of the mission of all prophets;
3. The unity of spiritual basis of Holy Books.

Next, was analyzed the concept Holly War (Jihad), that is different with war and holly war is necessary, [when commanded to do so] and in opposition to the people who stand against islam and muslims it is meaningful, while having a belief, even against Islam, does not provoke Jihad and war has no meaning in the Qur’anic culture.

**In the third chapter** have been analyzed different aspects religious pluralism in Qur’anic interpretation. For example, Qur’an does not accept Jhon Hick”s idea of “religious experience”. Qur’anic understanding of religious belief was based in Divine revelation. Qur’an provides dialogue revealed religions at the highest spiritual level.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ РУКОПИСЕЙ им. МУХАММЕДА ФИЗУЛИ**

*На правах рукописи*

**МУХАММАД РАМАЗАНАЛИ оглы ВАЛИХАХ**

# КОРАН И РЕЛИГИОЗНЫЙ ПЛЮРАЛИЗМ

**7213.01** – Религиоведение

## АВТОРЕФЕРАТ

диссертации на соискание ученой степени доктора
философии по философии

**БАКУ – 2014**